**“Bank Respublika” ASC-nin mükafatlandırma siyasəti**

“Bank Respublika” Açıq Səhmdar Cəmiyyətinin mükafatlandırma siyasəti Azərbaycan Respublikasının hüquqi aktları, habelə Bankdaxili siyasət, qayda və prosedurlar əsasında tərtib edilmişdir. Mükafatlandırma siyasəti “Bank Respublika” ASC-də (bundan sonra "Bank") idarəetmə qərarlarının qəbulu zamanı əməkdaşlarda təşkilatın uzunmüdətli hədəflərinə çatmasına yönəlmiş müvafiq fəaliyyət istiqamətlərini dəstəkləyən maddi motivasiya sisteminin formalaşdırılmasını və əsas prinsiplərini tənzimləyir.

Bankın mükafatlandırma sisteminin əsas məqsədlərinə daxildir:

- Obyektiv maddi və qeyri-maddi mükafatlandırma sisteminin formalaşdırılması;
- Bankdaxili fəaliyyətin stimullaşdırılması;
- Bankın əmək bazarında rəqabətə dayanıqlığının artırılması;
- Yeni mütəxəssislərin cəlb olunması və cari ixtisaslı kadrların saxlanması ilə güclü kadr potensialına sahiblənmək;
- Əməkdaşların ruh yüksəkliyinin təmin edilməsi.

Bankın mükafatlandırılması siyasəti uzunmüddətli və dayanıqlı dəyər yaradılmasını hədəf qoyaraq aşağıdaki şərtlərə cavab verməlidir:

- Bankın uzunmüddətli korporativ inkişaf strategiyasına uyğun olmalıdır;
- Qoyulmuş hədəflərin icrasına yönəlmiş olmalıdır;
- Sistemin şəffaflığını təmin etməlidir;
- Cari bazar tələbinə və öndəgedən beynəlxalq praktikaya müvafiq olmalıdır;
- Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğunluğu qorunmalıdır.

Mükafatlandırma siyasəti aşağıda sadalanan əsas prinsiplər üzərində fəaliyyət göstərir:

- Rəqabətlilik – sistemin əmək bazarında cari tələb səviyyəsinə uyğunluğu;
- Ədalətlilik və şəffaflıq - bütün əməkdaş kateqoriyası üçün bərabər artım və inkişaf imkanlarının yaradılması;
- Proaktivlik - bilik səviyyəsi və kompetensiyaların artırılması yolu ilə yeni bazar trendlərinin izlənməsi və tətbiqi;
- Bərabərlik - ixtiyari növ diskriminasiyaya yol verilməməsi, ierarxik strukturdan asılı olmayaraq mənfəət və gəlirin bölüşdürülməsində bərabər iştirak imkanlarının təmin edilməsi;
- Effektivlik – xərclərin minimallaşdırılması, stimullaşdırıcı motivasiya sisteminin tətbiqi ilə fərdi və kollektiv əməyin məhsuldarlığının artırılması.

Bankdaxili korporativ strategiyaya uyğun olaraq dəyərin və mənfəətin bölüşdürülməsinin aktual və ədalətli olması, risklərin idarəedilməsi üzrə qaydalara müvafiq icra edildiyinə nəzarət mexanizmi aşağıdaki kimidir:

- Bank mütəmadi olaraq mükafatlandırma sisteminin rəqabət qabiliyyəti və cari bazar tələbinin təhlilini aparır, Bankın maliyyə göstəricilərinə müvafiq qərarlar qəbul edir;

- Mükafatlandırmanın strukturu bazar araşdırmalarına, Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə, potensial risklərin təhlilinə, bankdaxili tələblərə müvafiq olaraq mütəmadi əsasda yenilənir;
- Bank öz inkişafında xüsusi rolu olan, yüksəkixtisaslı və birbaşa mənfəətin formalaşmasında mühüm rol oynayan strateji vəzifələrdə çalışan əməkdaşların cəlbi və saxlanması üçün onlara orta bazar qiymətindən yuxarı maddi kompensasiya təklif edə bilər;
- Daxili araşdırma nəticəsində sistemin aktuallığını itirmiş parametrləri aşkar olunarsa, tətbiqi dayandırılır, zərurət olduğu halda daha aktual və yeni metodlarla əvəz edilir;
- Mükafatlandırma siyasətinin Bank daxilində şəffaflığının təmin edilməsi məqsədi ilə işçilər üçün mükafatlandırma siyasətinin əsas prinsipləri daxili qaydalarda əksini tapır, həmçinin əməkdaşlar üçün mütəmadi olaraq cari və yeni motivasiya istifadə olunan göstəricilər və hesablama üsulları barədə açıq məlumatlandırılma həyata keçirilir.